*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*
***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:18.10.2024***
***Kabul tarihi |Accepted:12.12.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Elvira Lətifova**

***https://orcid.org/0000-0002-4218-6224***
*Associate Professor, Baku State University, Department of History Azerbaijan, Azerbaijan, elatifova@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Lətifova, E. (2024).Yaqub Mahmudov: 105 İllik Bakı Dövlət Universitetinin 85 Yaşlı Akademiki. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4562-4572.

# Yaqub Mahmudov: 105 İllik Bakı Dövlət Universitetinin 85 Yaşlı Akademiki*

***Xülasə***

*Məqalə Azərbaycanın görkəmli tarixçisi və dövlət xadimi, akademik Yaqub Mahmudovun həyat və yaradıcılığının tədqiqinə həsr olunub. Görkəmli tarixçinin fəaliyyəti çoxşaxəlidir. Hazırki yazıda alimin bilavasitə Bakı Dövlət Universiteti ilə bağlı fəaliyyətinə daha çox yer ayırmağa çalışmışıq. O, uzun illər Bakı Dövlət Universitetinin Tarix fakültəsinin kafedra müdiri, dekanı vəzifəsində çalışmış, universitetin həm elmi-pedaqoji, həm də ictimai həyatında böyük rol oynamışdır. Məqalədə iki yubilyarın – məzunu olduğu və sonralar çalışdığı Universitetlə ömrünün 67 ilini Azərbaycanın ilk Ali təhsil ocağına həsr etmiş alim arasında paralel aparılır. Məqalənin məqsədi görkəmli tarixçi Yaqub Mahmudovun həyat yolunu, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətini Bakı Dövlət Universitetinin keçdiyi yolla əlaqəli şəkildə araşdırmaqdır. Bu məqsədlə biz Yaqub Mahmudov haqqında olan məlumatların müqayisəli təhlilini aparmışıq. Tədqiqatımızın aparılması üçün istifadə etdiyimiz qaynaqlar sırasında həm alim haqqında onun yetirmələri və digər müəlliflərin yazdığı əsərlər, həm də alimin özünün tədqiqatları mühüm yer tutur.*

**Açar sözlər:** *Yaqub Mahmudov, Bakı Dövlət Universiteti, fəaliyyət, tarix kafedrası*

# Yagub Mahmudov: 85-year-old academician of 105-year-old Baku State University

---

* ***Akademik Tarih ve Düşünce Dergisi, Akademik Yaqup Mahmudlu'yu saygı ve hürmetle selamlar.***

BY NC
Creative Commons Licence

***Abstract***

*The article analyses the life and works of the famous historian and statesman of Azerbaijan, academician Yakup Mahmudov. The activities of the famous historian are multifaceted. In this article, we tried to give more space to the activities of the scientist directly related to Baku State University. For many years he served as the head of the department and dean of the Faculty of History of Baku State University, played an important role in both scientific, pedagogical and social life of the university. The article draws a parallel between the university where he graduated and later worked and the scientist who devoted 67 years to Azerbaijan's first institution of higher education. The aim of the article is to analyse the life path, scientific-pedagogical and socio-political activities of the famous historian Yakup Mahmudov in the context of the path followed by Baku State University. For this purpose, we conducted a comparative analysis of information about Yakup Mahmudov. Among the sources we used in our research, both the works written about the scientist by his students and other authors, as well as the scientist's own researches occupy an important place.*

***Keywords:*** *Yagub Mahmudov, Baku State University, event, history department*

## Giriş

Bu il Azərbaycan Respublikasının ən qədim ali təhsil ocağı, Azərbaycan Xalq Cümhuriyyətindən millətimizə (Mahmudov vd. 2005). dövlətimizə yadigar qalan ən dəyərli miraslardan biri olan Bakı Dövlət Universitetinin 105 illik yubileyi tamam olur. Mövcud olduğu illər ərzində Bakı Dövlət Universiteti çox təlatümlü, keşməkeşli, eniş və yoxuşlarla dolu bir yol qət edib, universitetin adı dəfələrlə dəyişdirilib, amma onun siması heç vaxt dəyişməyib. Universitetin simasını təşkil edənlər isə ilk öncə onun görkəmli məzunları, alimləri olub: Heydər Əliyev, Yusif Məmmədəliyev, Həsən Əliyev, Zahid Xəlilov, Bəxtiyar Vahabzadə, Azad Mirzəcanzadə, Nəsir İmanquliyev, Mir Cəlal Paşayev, Abdulla Qarayev, Ziya Bünyadov, Aida İmanquliyeva, Bəkir Çobanzadə, Heydər Hüseynov, Mirəli Qaşqay, Cəfər Xəndan Hacıyev, Yaqub Mahmudov.

Hazırki məqaləmizdə biz yuxarıda sıraladığımız görkəmli şəxsiyyətlərdən biri – Bakı Dövlət Universitetinin həm şöhrətli məzunu, həm görkəmli alimi, dövlət xadimi, əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri akademik Yaqub Mahmudov haqqında bəhs edəcəyik. Niyə məhz Yaqub Mahmudov? Çünki Yaqub Mahmudovun taleyi, keçdiyi ömür yolu da Bakı Dövlət Universitetinin keçdiyi yol kimi, həm çox ağır, həm də çox şərəfli olmuşdur. Bəlkə də təsadüfi deyil ki, Bakı Dövlət Universiteti və Yaqub Mahmudov yubileylərini eyni illərdə qeyd ediblər, bu il də belədir – Bakı Dövlət Universitetinin 105, Yaqub Mahmudovun isə 85 yaşı tamam oldu. Yaqub Mahmudovun 85 illik ömür yolunun 67 ili birbaşa BDU ilə bağlı olub.

## 1. Yaqub Mahmudovun həyat yolu

Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Dövlət Mükafatı Laureatı, tarix elmləri doktoru, professor Yaqub Mikayıl oğlu Mahmudov 1939-cu ildə Şəki rayonunun Baş Göynük kəndində Rəhimoğulları (Rəhimuşağı) nəslində dünyaya göz açmışdır (Mahmudlu, 2019). Bu nəsil mərd, döyüşkən mübariz nümayəndələri ilə yanaşı, həm də sayılıb-seçilən müdrik ağsaqqalları ilə təkcə Göynük mahalında deyil, həmçinin Şəki və ətraf ərazilərdə də yaxşı tanınırdı. Nəsilə xas ağsaqqallıq və mübarizlik keyfiyyətinin bu gün də davam etməsi heç də təsadüfi deyil. Atası Mikayıl Mahmud oğlu 1918–1920-ci illərdə Şəki bölgəsində, o cümlədən Göynük mahalında azərbaycanlıları kütləvi surətdə qırmağa çalışan daşnaklara qarşı fəal mübarizə aparmışdır (Azərbaycan tarixçiləri: biblioqrafik göstərici, 2010). Bütün bunların nə ticəsində təqiblərə məruz qalan Mikayıl Mahmud oğlu öz ailəsi ilə birlikdə Şəki rayonunun doğma Baş Göynük kəndindən didərgin düşür və bir müddət qonşu Qax-Zaqatala rayonları ərazisində gizli həyat keçirdikdən sonra, nəhayət Balakən rayonunun Sarıbulaq kəndində qərar tutur (Mahmudlu, 2019). Atası Mikayıl Mahmud oğlunun sovet rejimi tərəfindən təqib olunması və dönməz mübarizliyi, göstərdiyi igidliklər, keçirdiyi məşəqqətli günlər hələ uşaqkən Yaqub Mahmudovun xatirində dərin iz buraxmışdır. 1956-cı ildə Balakən rayonunun Sarıbulaq orta məktəbini bitirən Mahmudov ilk pedaqoji fəaliyyətə də burada başlamışdır. Bir müddət ilk məzunu olduğu doğma Sarıbulaq orta məktəbində tərbiyəçi-müəllim işləyir.

1957-ci ildə Mahmudov Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Tarix fakültəsinə daxil olur. Dərs əlaçısı olduğu üçün əvvəlcə Stalin, sonra isə Lenin təqaüdlərinə layiq görülür. Fakültə həmkarlar və komsomol təşkilatlarına başçılıq edir. Elmi axtarışlara xüsusi maraq göstərdiyi üçün Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin sədri seçilir (Xəlilov, 2022). 1962-ci ildə Universiteti əla qiymətlərlə bitirir və Tarix fakültəsi Elmi Şurasının xüsusi qərarı ilə orta əsrlər tarixi ixtisası üzrə aspiranturada saxlanılır. Həmin vaxtdan da görkəmli ortaəsrşünas alim professor Ə.M.Şahmalıyevin rəhbərliyi ilə orta əsr Azərbaycan dövlətlərinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələri problemi ətrafında elmi axtarışlara başlayır (Mahmudov, 1966). 1966-cı ildə Mahmudov XV əsrin ikinci yarısında Azərbaycan Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələrinə həsr olunmuş namizədlik dissertasiyası müdafiə edir (Mahmudov, 1987). Alimin o vaxtadək tədqiqatçılara məlum olmayan bir çox yeni mənbələr əsasında XV əsrdə Azərbaycanın xarici aləmlə, o cümlədən Qərbi Avropa dövlətləri ilə geniş ticarət və diplomatik əlaqələr saxladığını ilk dəfə olaraq aşkara çıxaran bu elmi tədqiqatına görə Tarix fakültəsinin Elmi Şurası ona, yekdilliklə, birbaşa tarix elmləri doktoru elmi dərəcəsi verməyi qərara alır. Lakin bu qərarı bəzi tarixçilər qısqanclıqla

qarşılayır. Onların təzyiqi ilə Yaqub Mahmudova tarix elmləri doktoru elmi dərəcəsi verilməsi haqqında qərar Universitetin Böyük Elmi Şurasında təsdiq olunmur. Bunun ardınca gənc alimə qarşı daha bir haqsızlıq edilir. Uğurlu müdafiəsinə və gənc mütəxəssis olmasına baxmayaraq, Y.M.Mahmudova Universitetdə iş verilmir. O, doğma təhsil ocağından uzaqlaşmağa məcbur olur (Xəlilov, 2022). 1966-cı ildə Azərbaycanın xalq şairi Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Sovet Ensiklopediyasında Tarix redaksiyasının elmi redaktoru kimi fəaliyyətə başlayan Y.M.Mahmudov 1975-ci ilədək burada böyük elmi redaktor, Ümumi tarix və Azərbaycan tarixi redaksiyalarının müdiri, nəhayət elmi işlər üzrə baş redaktor müavini vəzifələrində çalışır (Mahmudlu, 2011). Ensiklopediya illəri (1966–1975) Yaqub Mahmudovun elmi dünyagörüşündə kəskin dönüş yaradır. İlk Azərbaycan Ensiklopediyasının Baş redaktoru Rəsul Rzanın Azərbaycanın tarixi keçmişi ilə bağlı məsələlərdə barışmaz milli təəssübkeşliyi, sovet rejiminin məddahları olan bəzi ziyalıların, o cümlədən tanınmış tarixçilərin xalqa zidd mövqeyi, onların Mərkəzdən yeridilən milli ayrı-seçkilik siyasətini canfəşanlıqla müdafiə etmələri alimin həyatında dərin iz buraxır. O, Azərbaycan tarixinin bir çox taleyüklü məsələlərinin saxtalaşdırılmasına qarşı çətin mübarizə yolunu seçir.

Uzun illər ərzində BDU-da, həmçinin Azərbaycan Elmlər Akademiyasında (sonralar Azərbaycan Milli Elmlər Akademiyasında) ixtisaslaşdırılmış namizədlik və doktorluq şuralarının elmi katibi (1983–1987), həmsədri (1995–1997) və sədri (1987–1991, 1995–1998, 2004-cü ildən indiyədək) kimi fəaliyyət göstərən, çoxsaylı namizədlik və doktorluq dissertasiyalarının elmi rəhbəri, opponenti, rəyçisi olan Y. M. Mahmudov Azərbaycanda yüksək ixtisaslı tarixçi kadrların hazırlanmasına böyük əmək sərf edir. Göstərilən dövrdə həmin elmi şuralarda 300-dən çox namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur (Gözəlova, 2013).Yaqub Mahmudov 1981-2004-cü illərdə BDU-nun Tarix fakültəsində dosent, kafedra müdiri, dekan müavini və dekan olub. O, həmin illərdə tarixçi kadrların hazırlanmasının keyfiyyətcə yüksəldilməsi, tarix elminin tədrisinin yenidən qurulması, tədris planlarının təkmilləşdirilməsi üçün genişmiqyaslı fəaliyyət göstərib və KİV-də konkret təkliflərlə çıxış edib. Onun təşəbbüsü ilə "Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliği üzrə" Dövlət və Hökumət proqramları hazırlanıb, Respublika Tarix Liseyi yaradılıb, Tarix fakültəsində yeni ixtisaslar – "tarixçi-arxivşünas", "tarixçi-şərqşünas", "çinşünas", "tarixçi-arxeoloq","tarixçi-etnoqraf","beynəlxalq münasibətlər", "sosiologiya", "psixologiya", "etnopsixologiya", "etnososiologiya" və "sosial psixologiya" ixtisasları açılıb, "Azərbaycan tarixi" fənninin saatları artırılıb, "Azərbaycanın maddi-mədəniyyət tarixi", "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyaları, "Tarixi tədqiqatlarda

elektron-hesablama maşınları və riyazi üsulların tətbiqi" tədris laboratoriyası, Arxeologiya və Etnoqrafiya muzeyi yaradılıb, qədim türk dili və folklorunun tədrisinə başlanılıb. 1980-ci illərin ikinci yarısında Tarix fakültəsinin əlaçı tələbələrinin SSRİ-nin aparıcı ali məktəblərinə göndərilməsi genişləndirilib. 1989-cu ilin payızında Tarix fakültəsinin 70 illiyi Rusiya, Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Gürcüstandan olan tarixçi-alimlərin iştirakı ilə SSRİ miqyasında qeyd olunub (Xəlilov, 2022). 1980-ci illərin sonlarında BDU-nun Tarix fakültəsi milli azadlıq hərəkatının mərkəzlərindən biri olmuşdur. 1989-cu ildə Yaqub Mahmudovun sədri olduğu fakültə Elmi Şurası S.M.Kirov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Universitetinin tarixi adı olan Bakı Dövlət Universiteti adının bərpa olunması haqqında qərar qəbul edib və bu qərarın icrası ilə bağlı müvafiq məsələ qaldırılıb. Elə həmin dövrdə onun təşəbbüsü ilə Sovet İttifaqı Kommunist Partiyasının Tarix fakültəsindəki ilk partiya təşkilatı buraxılıb. O, 1990-cı ildə milli azadlıq hərəkatının fəalları olan bir qrup tələbənin universitetdən qovulmasının qarşısını alıb və bununla bağlı ona qarşı olan ağır təzyiqlər şəraitində dekan vəzifəsindən istefa verib (Nəcəfli, 2019). Onun istefasından sonra – 1991-1994-cü illərdə Tarix fakültəsində işgüzar elmi-pedaqoji mühit pozulub: onun təşəbbüsü ilə açılan yeni ixtisaslar, Respublika Tarix Liseyi və "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyası bağlanıb. 1991-ci ildə isə Tarix fakültəsi parçalanaraq onun əsasında iki yeni fakültə yaradılıb (Mahmudlu, 2011). Yaqub Mahmudov 1991-ci ildən Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiridir və həmin kafedranın formalaşması onun adı ilə bağlıdır. Yaqub Mahmudov Azərbaycan Respublikasının yeni təhsil sisteminin yaradılması işində, o cümlədən qəbul proqramlarının tərtibində və təkmilləşdirilməsində, test bankının yaradılmasında, fənlər üzrə metodiki vəsaitlərin hazırlanmasında fəal iştirak edib. Hələ 1991-ci ildə Azərbaycanda fövqəladə vəziyyət rejiminin tətbiq olunduğu dövrdə onun rəhbərliyi ilə orta ümumtəhsil məktəbləri üçün ilk "Azərbaycan tarixi" proqramı nəşr olunub (Mahmudlu vd. 2014; Mahmudlu vd. 1998; Mahmudlu & Jabbarov, 2014). O, 1991-1992-ci illərdə Təhsil Konsepsiyası və Təhsil Qanununu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik edib. O vaxt əhali, o cümlədən təhsil sistemi işçiləri konsepsiya və qanun layihələrini geniş müzakirə edərək bəyəniblər. Hətta 1992-ci ildə – Əbülfəz Elçibəyin prezidentliyinin 100 günü tamam olanda Təhsil Konsepsiyası Xalq Cəbhəsi iqtidarının uğuru kimi qeyd olunub. Lakin buna baxmayaraq, Xalq Cəbhəsi iqtidarının bəzi nümayəndələri Təhsil Qanununun qəbul olunmasına kəskin müqavimət göstərib və hətta Prezidentin qanunu imzalamamasına (veto) da nail olublar. Bununla belə, 1992-ci il dekabrın 16-da Milli Məclis Yaqub Mahmudovun təqdimatı ilə Təhsil Qanununun qüvvəyə minməsi barədə qərar qəbul edib və beləliklə, ölkədə müasir təhsil

sisteminə keçilib. Müstəqillik dövrünün ilk “Azərbaycan tarixi” və “Orta əsrlər tarixi” dərsliklərinin (orta ümumtəhsil məktəbləri üçün) yaradılması da onun adı ilə bağlıdır. Həmin dövrdə ilk dəfə olaraq türk imperiyalarının tarixi “Orta əsrlər tarixi” dərsliyinə daxil edilib və bu imperiyaların dünya tarixində yeri və rolu geniş işıqlandırılıb (Mahmudov, 2016; Mahmudov, 2006). Onun hazırladığı “Ata yurdu” dərsliyi isə 2003-cü ildə Azərbaycan tarixinə aid yeni elmi baxışa və dərslik mədəniyyətində uğurlu səhifə açdığına görə “İlin dərsliyi” seçilib (Xəlilov, 2022). 1992-ci il noyabrın 12-də o, Naxçıvana səfər edib, ümummilli lider Heydər Əliyevlə görüşüb və Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində çıxış edib. Daha sonra 1992-ci ilin dekabrında “Səs” qəzetində ardıcıl çıxış edərək bildirib ki, Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır (Mahmudov, 2019). Elə həmin dövrdə o, tez-tez cəbhə bölgələrinə – Xocalı, Şuşa, Ağdam, Laçın, Kərkicahan, Xankəndi, Meşəli, Cəmilli, Köhnəkənd, Qubadlı, Horadiz, Füzuli və başqa döyüş məntəqələrinə gedib, gəncləri qəhrəmanlığa ruhlandırıb. Yaqub Mahmudov 1993-cü ilin iyununda – vətəndaş müharibəsinin reallaşmaqda olduğu bir vaxtda qarşı duran tərəflər arasında barışıq yaratmaq üçün bir neçə ziyalı ilə birlikdə Navahı kəndinə də səfər edib. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra – 1994-cü ildə o, yenidən BDU Tarix fakültəsinin dekanı seçilib. 1994-2004-cü illərdə Tarix fakültəsində əvvəlki işgüzar elmi-pedaqoji mühit yenidən bərpa olunub: “Qafqazşünaslıq” və “Amerikaşünaslıq” ixtisasları açılıb, yeni fənlər – “Azərbaycan toponimikası”, “Tarixi demoqrafiya”, “Altayşünaslığın əsasları”, “Beynəlxalq münasibətlər tarixi”, “Türk xalqları tarixi” və “Din tarixi” fənləri tədris planına daxil edilib, fakültədə Azərbaycanşünaslıq, Altayşünaslıq və Amerikaşünaslıq mərkəzləri, “Türk odası” yaradılıb və “Dünya azərbaycanlıları: tarixi-demoqrafiya” elmi-tədqiqat laboratoriyası yenidən fəaliyyətə başlayıb (Azərbaycan tarixçiləri: biblioqrafik göstərici, 2011; Mahmudov, 2003; Mahmudlu, 2019). Yaqub Mahmudovun Bakı Dövlət Universitetinin həyatında, o cümlədən ümumiyyətlə Vətən tarixşünaslığında göstərdiyi və yuxarıda işıqlandırdığımız məsələlərlə yanaşı, onun Tarix elmimizdə yeni konsepsiya və istiqamətlərin – xüsusilə də “itirilmiş torpaqlar” və “saxtalaşdırılmış tarix” istiqamətlərinin yaradılmasındakı fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Bu istiqamətdəki ilk addımlar Yaqub Mahmudov tərəfindən keçən əsrin 90-cı illərindən atılmağa başlandı. Tarixçi-alim bu istiqamətdə xüsusilə sərhəd bölgələrinin tarixinin obyektiv araşdırılmasının bünövrəsini qoydu – Qarabağ, Naxşıvan, İrəvan, Dərbənd, Şimal-Qərbi Azərbaycan tarixinə dair dissertasiyaların işlənməsi həmin illərdə gənc aspirantlara həvalə olundu və nəticədə 90-cı illərin sonları – 2000-ci illərin əvvəllərində bu problemlərə həsr olunmuş ilk monoqrafiyalar, o cümlədən də hazırki

məqalənin müəllifinin ilk monoqrafiyası işıq üzü gördü, ilk dissertasiyalar müdafiə edildi (Lətifova, 2009; Lətifova, 2019; Məmmədov, 2018). Yaqub Mahmudov 2004-2021-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru olub. O, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə AMEA-nın həqiqi üzvü seçilib. Onun Tarix İnstitutunun direktoru olduğu dövrdə Azərbaycan tarix elminin təhriflərdən və saxtalaşdırmalardan təmizlənməsi sahəsində mühüm uğurlar qazanılıb. O, tarixşünaslıqda ilk dəfə olaraq XV-XVII əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə geniş diplomatik əlaqələr saxladığını və həmin ölkələrlə danışıqlar aparmış bir çox Azərbaycan diplomatlarının adlarını üzə çıxarıb (Xəlilov, 2022; Mahmudov, 2006; Mahmudov, 2012). Yaqub Mahmudovun rəhbərliyi ilə “Azərbaycan tarixi ilk mənbələrdə” layihəsi reallaşıb və respublikaya Türkiyə, Rusiya, Gürcüstan, Fransa, Böyük Britaniya, Almaniya, Hindistan və digər ölkələrdən on minlərlə arxiv sənədi gətirilib (Mahmudov, 2010). Bu sənədlər əsasında ermənilərin Azərbaycana çar Rusiyası tərəfindən XIX əsrdə köçürülməsi, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövlətinin olmaması, Stepan Şaumyanın “Daşnaksütyun” partiyasının Bakı komitəsinin üzvü olması və onun, “26 Bakı komissarı” sırasında güllələnməmədiyi sübut edilib.

2013-2018-ci illərdə Yaqub Mahmudovun təşəbbüsü və dünyanın görkəmli alimlərinin iştirakı ilə Bakı, Quba, Şamaxı, Lənkəran və Qusarda 5 beynəlxalq soyqırımı konfransı keçirilib və bu konfranslarda Prezident İlham Əliyevə müraciətlər ünvanlanıb (Mahmudov, 2010; Mahmudov, 2011). Onun yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsi sahəsində də mühüm xidmətləri var. O, diplomatiya tarixi, itirilmiş torpaqlar və soyqırımları tarixi istiqamətləri üzrə elmi məktəblər yaradıb (Mahmudov, 2015). Onun elmi rəhbərliyi ilə 73 nəfər fəlsəfə və elmlər doktoru yetişib.

2021-ci il yanvarın 22-də isə o, Tarix İnstitutunun direktoru vəzifəsindən kənarlaşdırılaraq, AMEA-nın müşaviri vəzifəsinə keçirilib. Bütün bunlara rəğmən, Prezident İlham Əliyev onu Azərbaycan tarix elminin tədqiqi və tədrisində böyük xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şərəf” və 1-ci dərəcəli “Əmək” ordenləri ilə təltif edib. Heydər Əliyev Yaqub Mahmudovun elmi fəaliyyətini yüksək qiymətləndirərək, onu Azərbaycanın “böyük alimi”, “böyük tarixçisi” adlandırıb. Yaqub Mahmudov Azərbaycan Respublikasının “Şöhrət” (1999), “Şərəf” (2009) və 1-ci dərəcəli “Əmək” (2019) ordenlərinə layiq görülüb. O, Azərbaycanın Əməkdar elm xadimi və Dövlət Mükafatı laureatı, AMEA-nın həqiqi üzvü, “Yusif Məmmədəliyev”, “Rəsul Rza”, “Qızıl qılınc”, “Qızıl qələm”, “Samir Əsgərxanov”, “Humay”, “Gənclərin dostu” və “Ekologiyanın dostu” mükafatları laureatıdır (Xəlilov, 2022; Tanıdığımız və tanımadığımız Yaqub, 2019). O,

təkcə Azərbaycanda deyil, həm də dünya miqyasında tanınır. Onun əsərləri indiyədək 15 dilə – türk, ingilis, rus, alman, ərəb, fars, fransız, gürcü, ibri, ispan, italyan, polyak, ukrain, urdu və rumın dillərinə tərcümə edilib. Beynəlxalq Sokrat Komitəsi 2012-ci ildə onu dünya elminə verdiyi töhfələrə görə "Elmdə ad" ("The Name in Science") fəxri titulu və "Dünya elminə töhfə" ("For Contribution to World Science") medalı ilə təltif edib. Bununla da, o, XXI əsrin məşhur elm adamlarının siyahısına daxil edilib. Dünya şöhrətli tarixçi-alim Yaqub Mahmudov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Beynəlxalq Aytmatov Akademiyasının, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının, İtaliyanın Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının və İtaliyanın Bonifasiana Akademiyasının həqiqi üzvü, Rusiya Federasiyası Dağıstan Respublikasının Əməkdar elm xadimi, Oksford Akademik Birliyinin fəxri professorudur. O, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) "Beynəlxalq Qızıl Ulduz" medalı, TDABEA- nın Beynəlxalq Atatürk Mükafatı, TDABEA-nın 2019-cu il üçün "Türk dünyasında ilin elm adamı" Beynəlxalq mükafatı, Avropa Təbiət Elmləri Akademiyasının (ATEA) "Qotfrid Vilhelm Leybnits" medalı, ATEA-nın "Fəxri Legion" ordeni, "Simurq" beynəlxalq medalı, Alman-Azərbaycan Cəmiyyətinin "Dostluq" medalı, "Ən yaxşı baş menecer" fəxri adı, "Kraliça Viktoriya" Beynəlxalq müka- fatı, "Ataman Anton Qolovatıy" ordeni, Millətlərin Birləşmiş İctimai Təltif Şurasının (UN Council for Public Awards – UNCOPA) "XXI əsrin lider şəxsiyyəti" Beynəlxalq mükafatı, UNCOPA-nın "Lider", "Avropa xidmət" və "Avropa lideri ulduzu" ordenləri ilə təltif olunub. Tarixçi-alim həm də UNCOPA-nın "Sülh səfiri" fəxri tituluna layiq görülüb. Yaqub Mahmudov, eyni zamanda, bu mükafatlarla da təltif olunub: "Heydər Əliyevin 100 illiyi (1923-2023)" (Mahmudov, 2002; Mahmudov, 2002). Azərbaycan Respublikasının yubiley medalı, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı, "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı, Milli Məclisin "Parlament" medalı, "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı, "General Səməd bəy

Mehmandarov" yubiley medalı, AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatı və Tarix İnstitutunun təsis etdiyi "Gənclərin dostu" mükafatı (Xəlilov, 2022).

**Nəticə**

Beləliklə, Yaqub Mahmudovla bağlı apardığımız araşdırmalar bu böyük alimin Azərbaycan və Türk dünyasının tarix elminə, təhsil sisteminə ictimai-siyasi həyatına nə qədər müsbət qatqı sağladığını göstərir. Bununla yanaşı, çoxistiqamətli fəaliyyətinin ana xəttini təşkil edən bir xüsusiyyət var ki, bu da onun müxtəlif yönümlü çalışmalarını bir mərkəzdə birləşdirir – bu ana xətt alimin vətəninə, millətinə, türkçüküyə xidmətidir. Məhz bu amal onu keçən əsrin 90-cı illərindən başlayaraq Bakı Dövlət Universitetində, 2004-cü ildən isə Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix institutunda "İtirilmiş torpaqların tarixi" və "Saxtalaşdırılmış tarix" elmi istiqamətlərin əsasını qoyaraq inkişaf etdirməyə sövq etmişdir. Böyük alim bu gün də Bakı Dövlət Universitetində kafedra müdiri olaraq aktiv elmi fəaliyyətini davam etdirir. 2024-cü ilin göstəricilərinə görə alimin H-indeksi 15, elmi əsərlərinə edilmiş istinadların sayı 400-dən artıqdır. "Azərbaycan tarixi" (History of Azerbaijan) sahəsində dünya çapında tədqiqatçılar içərisində birinci mövqeyi, dünyanın tanınmış tarixçi alimləri içərisində "Dünya tarixi" (World History) istiqamətində tədqiqatçılar sıralamasında 31-ci yeri tutur (Mahmudov, 2024). Alimin əsərləri beynəlxalq akademik mühitdə diqqətlə öyrənilir. 2019-cu ili ən məhsuldar illərdən biri hesab etmək olar. Bu ildə Y.Mahmudovun əsərlərinə dünya alimləri tərəfindən 37 elmi istinad edilmişdir. Alim gənc tarixçilərin doğru istiqamətləndirilməsinə, Tarix fakültəsinin və bütövlükdə Bakı Dövlət Universitetinin uğurlu fəaliyyətinə bu gün də mühüm töhfələr verməkdə davam edir.

**Ədəbiyyat**

*Azərbaycan tarixçiləri: biblioqrafik göstərici.* (2010). (I C.). Elm və Təhsil.

*Azərbaycan tarixçiləri: biblioqrafik göstərici.* (2011). (II C.). Elm və Təhsil.

Gözəlova, Y. H. (2013). *Tarix elmində Yaqub Mahmudov məktəbi*. Təhsil.

Mahmudlu Y. M. (2011-2019). *Seçilmiş əsərləri.* Azərnəşr.

Mahmudlu (Mahmudov) Y.M. (2019). *Biblioqrafiya. Təkmilləşdirilmiş və yenidən işlənilmiş.* Turxan NPB.

Mahmudov, Y. (2019). Azərbaycanın müstəqilliyi yolunda Heydər Əliyevin tarixi xidmətləri danılmazdır. *Azertag.az.*

Məmmədov, N. R. (2018). *Akademik Yaqub Mahmudov elmi yaradıcılığında Qarabağ mövzusu.* Avropa.

Mahmudlu, Y. vd. (2014). *Ümumi Tarih-9.* Təhsil.

Mahmudlu, Y. M., & Qocayev, Ə. Ə. (2009). Orta Əsrlər Tarixi, 8-ci Sinif Ümumtəhsil Məktəbleri üçün Dərslik. *History of Middle Ages, Textbook for 8th Grade.* Tahsil Nəşriyyatı.

Mahmudlu, Y. vd. (1998). *Azerbaycan Tarixi, 7-ci sinif üçün derslik.* Azərnəşr.

Mahmudlu, Y., & Jabbarov, H. (2014). History of Azerbaijan: 8th grade textbook.

Mahmudov, Y. (2001). *Azerbaycan tarihi*. Təhsil nəşriyyatı.

Mahmudov, Y. (2010). *The Iravan Khanate: The Russian occupation and the relocation of Armenians to the lands of North Azerbaijan.* Azerbaijan National Academy of Sciences.

Mahmudov, Y. (1991). *Vzaimootnoşeniya Gosudarstv Akkoyunlu i Safavidov c Zapadnoyevropeyskimi Stranami*. BDU.

Mahmudov, Y. (Ed.). (2010). *İrəvan xanlığı: Rusiya işğalı vä ermänilärin Şimali Azärbaycan torpaqlarına köçürülməsi*. Regionların inkişafı ictimai birliyi.

Mahmudov, Y. (2008). *Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış).* Aspoliqraf.

Mahmudov, Y. M. (2016). *Azərbaycanın Avropa ölkələri ilə əlaqələri: Ağqoyunlu dövrü.(XV əsrin II yarısı).* Təhsil.

Mahmudov, Y. (2006). *Azerbaijan: short history of statehood.* Azerneşr.

Mahmudov, Y. M. (2006). Azerbaycan diplomatiyası. Tahsil neşriyatı.

Mahmudov, Ya M. (1977). *Səyahətçilər Azərbaycana gəlirlər.* Gənclik.

Mahmudov, Y. M. (2012). *Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi, 1639-1828 dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları*. BDU.

Mahmudov, Ya M., & Şükürov, K. (2009). Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. (ss.15-16). *Beynəlxalq müqavilələr və digər xarici siyasət aktları*.

Mahmudov, Y. (2010). *Azerbaijan & Europe: Medieval Diplomatic Relations*. Xlibris Corporation.

Mahmudov, Ya. (2005). *Azərbaycan: qısa dövlətçilik tarixi.* Təhsil.

Mahmudov, Y. (2009). Azerbaijan: the history of international relations and diplomacy. 1639-1828. In 4 volumes. First volume.

Mahmudov, Y. (2005). *Garabagh: real history, facts, documents*. Tahsil

Mahmudov, Y. (Ed.). (2010). *The Iravan Khanate: The Russian occupation and the relocation of Armenians to the lands of North Azerbaijan*. Azerbaijan National Academy of Sciences.

Mahmudov, Ya. (2015). 1918-1920-ci illərdə Azərbaycan xalqının soyqırımı *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərlər Məcmuəsi. 2* (1). 52-59.

Mahmudov, Y. (2008). *The Azerbaijanis (general view of ethnic-political history).* Azpoligraf.

Mahmudov, Ya M. (2017). Azərbaycanlılar: etnosiyasi tarixə baxış. *Müasir elmi fikir,* 1, 7-17.

Mahmudov, Y. (2010). *İrevan Xanlığı Rusya İşgali ve Ermenilerin Şimali Azerbaycan Torpağlarına Köçürülmesi.* Azerbaycan Milli ElmlerAkademiyası, AA Bakıxanov Adına Tarix Enstitüsü Yayınları.

Mahmudov, Ya M. (1987). *Akqoyunlu və Səfəvi dövlətləri ilə Avropa ölkələri arasında münasibət məsələsi haqqında/XV əsrin ikinci yarısı - XVII əsrin əvvəlləri.* (birinci maddə). ASSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, Bakı N, 3.

Mahmudov, Ya M. (1966). *Akqoyunlu dövləti ilə Venesiya münasibətləri. e.ə. 60-70 XV əsr* [Dissertasiyanın xülasəsi, Cand. Diss].

Mahmudov, Y., & Şükürov, K. (2003). Azerbaycan Uluslararası İlişkileri ve Diplomasi Tarihi, Devletlerarası Anlaşmalar ve Diğer Harici Siyaset Aktları (1639-1828).(n.y).

Mahmudov, Ya M. O. (1989). *Akqoyunlu və Səfəvi dövlətləri ilə Qərbi Avropa ölkələri arasında əlaqələr (XV əsrin ikinci yarısı - 17-ci əsrin əvvəlləri)* [Doktorluq dissertasiyası, Lomonosov adına Moskva Dövlət Universiteti).

Mahmudov, Y. (2003). Azerbaycan Devletçiliği (Tarihe Genel Bakış). *Kafkas Üniversitesi Dergisi, Özel Sayı, 11*, 61-135.

Mahmudov, Ya. (2002). *Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti.* Təxsil nəşriyyatı.

Mahmudov, Y. vd. (2005). *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası* (II Cild). Lider nəşriyyatı.

Mahmudov, 2024, https://scholar.google.com/citations?hl=ru&use

Nəcəfli G. C. (2019). *Şərəfli ömrün bir səhifəsi: Taix fakültəsi (1986-1990).* Turxan NPB.

Lətifova, E. M. (2009). *Yaqub Mahmudov Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqlar" istiqamətinin müəllifidir.* (C. 30). AMEA Tarix institutunun elmi əsərləri.

Lətifova E. M. (2019). *Yaqub Mahmudovun "İtirilmiş torpaqlar" istiqaməti kontekstində İlisu sultanlığının tarixinin açılması tarixindən.* (C. 80). AMEA Tarix institutunun elmi əsərləri.

*Tanıdığımız və tanımadığımız Yaqub Mahmudov.* (2019). Turxan NPB.

*Yaqub Mahmudovun tarixçilər məktəbi.* (2019). Turxan NPB.

Xəlilov, N. (2022). *Ağır sınaqlarda sınmayan böyük alim: Yaqub Mahmudov*. Zərdabi-Nəşr.